Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi Əsərləri №2, 2023
Proceedings of Azerbaijan State Marine Academy №2, 2023

*UOT 658.7*

# MULTİMODAL LOGİSTİK NƏQLİYYAT-PAYLAYICI MƏRKƏZİNİN TƏŞKİLATİ-FUNKSİONAL STRUKTURUNUN MODELLƏŞDİRİLMƏSİ

**Rəhimov C.R.**

*Azərbaycan Texniki Universiteti*
*AZ1073, Bakı şəh., H.Cavid pr., 25*
*E-mail: jeyhoon.rahimov@aztu.edu.az*

***Xülasə.*** *Məqalədə multimodal logistik nəqliyyat-paylayıcı mərkəzinin (MLNPM) təşkilati-funksional strukturunun modelləşdirilməsinə baxılmışdır. Multimodal logistik nəqliyyat-paylayıcı mərkəzlərinin informasiya təminatı və inteqrasiyalı altsisteminin formalaşdırılması öyrənilmişdir. Eyni zamanda multimodal logistik nəqliyyat-paylayıcı sisteminin (MLNPS) informasiya təminatının təşkilati strukturu işlənilmişdir. Multimodal logistik nəqliyyat-paylayıcı sisteminin telekommunikasiya şəbəkəsinin iyerarxik strukturu hazırlanmışdır. Multimodal logistik nəqliyyat-paylayıcı mərkəzin inkişafı üçün normativ-hüquqi təminat məsələlərinə baxılmışdır.*

***Abstract.*** *The article considers the modeling of the organizational and functional structure of a multimodal logistics transport and distribution center (MLTDC). The formation of information support and an integrated subsystem of multimodal logistics transport and distribution centers has been studied. At the same time, the organizational structure of the information support of the multimodal logistics transport and distribution system (MLTDS) was developed. A hierarchical structure of the telecommunications network of a multimodal logistics transport and distribution system has been developed. the issues of regulatory and legal support for the development of a multimodal logistics transport and distribution center were considered.*

***Аннотация.*** *В статье рассмотрено моделирование организационно-функциональной структуры мультимодального логистического транспортно-распределительного центра (МЛТРЦ). Исследовано формирование информационного обеспечения и интегрированной подсистемы мультимодальных логистических транспортно-распределительных центров. При этом была разработана организационная структура информационного обеспечения мультимодальной логистической транспортно-распределительной системы (МЛТРС). Разработана иерархическая структура телекоммуникационной сети мультимодальной логистической транспортно-распределительной системы. рассмотрены вопросы нормативно-правового обеспечения развития мультимодального логистического транспортно-распределительного центра.*

***Açar sözlər:*** *nəqliyyat, multimodal logistika, modelləşdirmə, inteqrasiya, alt sistem, telekommunikasiya, regional, funksional, yük, əmtəə, çeviklik, adaptivlik, dəqiqlik, rasional, potensial, sxemlər, ekspedisiya, subyekt, informasiya*

***Key words:*** *transport, multimodal, logistics, modeling, integration, subsystem, telecommunications, regional, functional, standard, freight, commodity, flexibility, manufacturability, accuracy, rational potential, schemes, expedition, subject, information*

***Ключевые слова:*** *транспорт, мультимодальная, логистика, моделирование, интеграция, подсистема, телекоммуникация, региональный, функциональный, грузовой, товарный, гибкость, технологичность, точность, рациональный потенциал, схемы, экспедиция, предмет, информация*

**Giriş.** MLNPS-in formalaşdırılması metodologiyası sistemli, proqram-məqsədli və logistikanın inteqral paradiqmasına əsaslanır. Mürəkkəb sosial-iqtisadi obyektlərin sintezi zamanı tətbiq edilən

sistemli yanaşmanın əsas prinsipləri və müddəaları milli və funksional xüsusiyyətləri də nəzərə alınmaqla LNPS-in sintezində dəqiqləşmələr və konkretləşmələr tələb edir. Çünki, MLNPS öz növbəsində MLNPS mürəkkəb dinamik iyerarxik və stoxastik sistemdir, çoxsaylı qarşılıqlı təsir və qarşılıqlı əlaqədə olan elementlərdən – özləri də çoxsəviyyəli iyerarxik strukturlu logisstik sistem bloklarından ibarətdir. MLNPS-in bəndləri (elementləri) məqsədli və funksional təyinatlı nisbi stabilliklə səciyyə olunur, lakin bütövlükdə MLNPS üçün onlar logistik funksiyalarının qarşılıqlı əvəzedilməsi və aqreqatlaşdırılması imkanlarına görə qeyri-müəyyəndir.

MLNPS-in yaradılması və fəaliyyəti yük və əmtəə dövriyyəsi prosesinin logistik idarə edilməsinin inkişafına əsaslanır, həmçinin beynəlxalq standartlara uyğun logistik nəqliyyat-paylayıcı sistemin (LNPS) formalaşmasını tələb edir. MLNPS-in fəaliyyəti və inkişafının idarə edilməsinin təşkilati strukturunun qurulmasının əsasında funksional və təminedici altsistemlərdən ibarət olan təşkilati-funksional struktur durur [1].

**Məsələnin qoyuluşu.** Multimodal terminal kompleksləri əsasında formalaşan inteqrasiyalı MLNPS-in idarə edilməsinin təşkilati strukturu şəkil 1-də təqdim olunmuşdur. Qarşıya qoyulan məqsəd MLNPM-nin təşkilati-funksional strukturunun modelləşdirilməsidir.

MLNPM-in yaradılması üzrə məqsədli proqramların reallaşdırılmasının idarə edilməsi orqanlarının formalaşdırılması zamanı aşağıdakı əsas prinsiplərin rəhbər tutulması məqsədəuyğundur:

– mürəkkəb və geniş şaxələnmiş LNPS kimi bir sistemin idarə edilməsi Azərbaycan iqtisadiyyatının, eləcə də təcrübi olaraq bütün sahələrin inkişafına güclü təsir göstərdiyindən üç səviyyəli xarakter daşımalıdır: beynəlxalq, milli və regional (yerli). Bu zaman müxtəlif səviyyəli idarəetmə orqanları arasında funksiya və səlahiyyətlərin səlis bölgüsü, qarşılıqlı maraqlar dairəsində uzlaşdırılmış birgə qərarların qəbul edilməsi tələb olunur;
– bazar iqtisadiyyatı xüsusiyyətlərinin nəzərə alınması, hər şeydən əvvəl, qarşılıqlı faydalı əməkdaşlıq şərtlərinə əməl edilməsi, sistemin subyektləri arasında məcmu sinergetik effektin paylaşdırılması, iqtisadi güzəştlərə nail olunması və maraqların razılaşdırılması əsasında inteqrasiya olunmuş yük hərəkəti logistik sistem iştirakçılarının iqtisadi-hüquqi qarşılıqlı münasibətlərinin vahid sisteminin yaradılmasını nəzərdə tutur;
– marketinq və logistik menecment metodlarının nəqliyyat müəssisələrinin iş təcrübəsinə tətbiqi əsasında ölkənin nəqliyyat kompleksinin müəssisə və təşkilatlarının rəqabət qabiliyyətinin təmin edilməsi, nəqliyyat-logistik servisin inkişafı əsasında müştərilərin tələblərinin kəmiyyət və keyfiyyətcə maksimum ödənilməsi;
– yük və əmtəə dövriyyəsi sistemində mütərəqqi terminal texnologiyalarının təşkili və idarəetmənin logistik prinsiplərinin tətbiqi əsasında ölkədə nəqliyyat-ekspedisiya və logistik xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə, bu fəaliyyət sahələrində sahibkarlığın lisenziyalaşdırılması əsasında nəqliyyat-ekspedisiya və logistik xidmətlər bazarının inkişafının birbaşa dövlət tənzimlənməsi mexanizminin tətbiqi;
– büdcə və büdcədən kənar mənbələrin, o cümlədən iri və kiçik ölkə biznes-kommersiya strukturları və xarici kapitalı cəlb etməklə, ölkə ərazisində yerləşən nəqliyyat qovşaqlarında nəqliyyat və logistik infrastrukturun inkişafının pay bölgüsü üzrə maliyyələşdirilməsinin təmin edilməsi;
– intermodal əlaqəli operatorun iştirakı ilə qarışıq xarici ticarət yük daşımalarının təşkilində nəqliyyatın bütün növlərinin koordinasiyalı və qarşılıqlı əlaqəli işinə əsaslanan intermodal konsepsiyanın ümumşəbəkə (regional) nəqliyyat qovşağında reallaşdırılması;
– milli logistik nəqliyyat-paylayıcı sistem iştirakçılarının informasiya təminatının inteqrasiyalı sisteminin yaradılması üçün zəruri təşkilati-iqtisadi və istehsal-texniki şəraitlərin təmin edilməsi;
– əmtəə-material və onları müşayiət edən servis, informasiya və maliyyə axınlarının idarə edilməsində mütərəqqi terminal texnologiyaları və logistik yanaşmağa öyrədilməklə nəqliyyat-

ekspedisiya, servis və logistik fəaliyyətin digər (daşıma, anbarlama, paylayıcı və s.) sahələrində kadrların peşəkar hazırlığı və yenidən hazırlığının təşkili;




***Şəkil 1.*** *Multimodal terminal kompleksləri əsasında formalaşan inteqrasiyalı milli nəqliyyat-paylayıcı sistemin idarə edilməsinin təşkilati strukturu*

– lisenziya sistemi, logistik infrastruktur obyektlərinə sərmayələrin güzəştli kreditləşdirilməsi, güzəştli vergiqoyma, terminal kompleksləri və logistik nəqliyyat-paylayıcı mərkəzlərin, həmçinin digər regional distributiv şəbəkə obyektlərinin tikilməsinə torpaq sahələrinin ayrılması, regional nəqliyyat-paylayıcı sistemin iştirakçılarına eyni sərfəli şərtlərin təmin

edilməsinə yönəlmiş normativ-hüquqi tənzimləmə də daxil olmaqla dövlət və bələdiyyə tənzimləməsinin tətbiqi əsasında LNPS iştirakçılarına daha münasib şəraitin təmin edilməsi ilə dövlət dəstəyi və tənzimlənməsi sisteminin yaradılması;

– regionlararası və beynəlxalq inteqrasiyalı nəqliyyat-logistik sistemlərin formalaşdırılması əsasında LS-in yük və əmtəə hərəkətinin milli və beynəlxalq logistik sistemlərinə inteqrasiyasının təmin edilməsi.

Beləliklə, ümumşəbəkə (multimodal) nəqliyyat qovşağı əsasında formalaşdırılan inteqrasiyalı LNPS-in təşkilati idarəetmə strukturunda xüsusi yeri sxemdə təqdim olunmuş regional idarəetmə orqanları tutur. Yəni, nəqliyyat və rabitə üzrə regional idarələr, istehlak bazarı, xarici iqtisadi əlaqələr, elm və texnologiyalar; Yüksək Texnologiyalar Nazirliyinin nəqliyyat və rabitə sahələri üzrə ərazi orqanları; nəqliyyat növləri üzrə Departament və Agentliklər; Xəzər Dəniz Gəmiçiliyi, Azərbaycan Dəmir Yolları, Azərbaycan Hava Yolları; Dövlət Gömrük Komitəsinin regional idarələri və s. [2]

Ölkə logistik nəqliyyat-paylayıcı sistemin (MLNPS) informasiya məkanı telekommunikasiya, proqram-texniki, informasiya və təşkilati-iqtisadi mühiti ilə müvafiq strukturları və onlar arasında normativ-hüquqi aktlarla müəyyən edilmiş təşkilati-iqtisadi münasibətləri özündə ehtiva edir. Telekommunikasiya və intellektual dəstəyin müasir vasitələrinin istifadəsinə əsaslanan vahid inteqrasiyalı informasiya məkanının ölkədə yaradılması MLNPS-in səmərəli fəaliyyət göstərməsi ilə yanaşı, idarəetmə orqanlarının səmərəli fəaliyyətini təmin edər. Həmçinin ölkə ərazisində yerləşən multimodal nəqliyyat qovşağında nəqliyyat növlərinin koordinasiya və qarşılıqlı təsirinin səmərəliliyi yüksələr. Ölkədə vahid informasiya məkanının formalaşdırılmasına bütövlükdə nəqliyyat-paylayıcı sistemin fəaliyyətinin idarə edilməsi sisteminin tərkib hissəsi kimi baxmaq lazımdır, bu zaman o inteqrasiyaedici rol oynayacaq, sahə və regional vəzifələrin həllində rasional potensial imkanları daha da artıracaqdır.

İnteqrasiyalı informasiya altsisteminin qurulmasının əsasında aşağıdakı əsas prinsiplər durmalıdır.

**İstifadəçi üçün informasiyanın dolğunluğu və yararlılığı.** MLNPS-in menecmenti qərarlar qəbul etmək üçün zəruri (kifayət) və dolğun, özü də ona lazım olan şəkildə informasiyaya malik olmalıdır. Məsələn, hazır məhsul ehtiyatlarının və ya istehsalçıların (yük göndərənlərin) yüklərin daşınmasına dair informasiyaları çox vaxt ilkin emal tələb edir və nəqliyyatçı təşkilatın menecerinin qərar qəbul etdiyi iş yerində yerləşdirilmir. Odur ki, informasiya sistemi informasiyanı müvafiq nəqliyyat-logistik funksiyaların və əməliyyatların yerinə yetirilməsində tələb olunan yerdə, şəkildə və dolğunluqla təqdim etməlidir.

**İlkin informasiyanın dəqiqliyi və dürüstlüyü.** Düzgün qərarlar qəbul etmək üçün ilkin informasiyanın dəqiqliyi prinsipial əhəmiyyət kəsb edir. Məsələn, müasir LNPS-də distributiv şəbəkədə yük ehtiyatlarının səviyyəsi barədə informasiyada səhvlər və ya fiziki paylanma ehtiyatlarının yaradılması və istehlakçıların məmnunluğunda qeyri-müəyyənlik 1%-dən çox olmamalıdır. İlkin məlumatların dəqiqliyi və dürüstlüyü tələbatın proqnozlaşdırılması, məhsul həcminin planlaşdırılması, yük daşımalarının istiqamətləri və strukturunun müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edir.

**İnformasiyanın vaxtında daxil olması.** Yük daşımalarına tələbata dair informasiya menecment sisteminə vaxtında daxil olmalıdır. Bunu nəqliyyat-logistik texnologiyaların əksəri, xüsusən just in time (dəqiq vaxtında) konsepsiyasına əsaslanana texnologiyalar tələb edir. İnformasiyanın vaxtında verilməsi LNPS-də təcrübi olaraq bütün nəqliyyat-paylayıcı logistik funksiyası və əməliyyatlar üçün çox vacibdir. Bundan başqa, nəqletmədə, əməliyyat menecmentində, sifariş və ehtiyatların idarə edilməsində bir çox məsələlər real zaman rejimində (on line) həll olunur. Bunu həm də nəqliyyat logistik monitorinqin çoxsaylı məsələləri tələb edir. İnformasiyanın vaxtında daxil olması və emalı tələbi skanerləmə, peyk naviqasiyası, ştrixli kodlaşdırma, EDİ/EDİFACT standartlarının tətbiqinin müasir logistik texnologiyaları vasitəsilə də reallaşdırıla bilər.

**İnformasiyanın çevikliyi və adaptivliyi.** MLNPS-də sirkulyasiya edən informasiyalar konkret istifadəçilər üçün uyğunlaşdırılmalı və onlar üçün istifadəyə daha rahat şəkildə olmalıdır. Bu, həm firmanın personalı, həm də LNPS-ə daxil olan logistik vasitəçilər və son istehlakçılara aiddir.

Kağız və elektron sənəd dövriyyəsi, aralıq və çıxış formaları, hesabatlar, arayış və digər sənədlər nəqliyyat-paylayıcı logistik proseslərin bütün iştirakçılarının tələblərinə uyğunlaşdırılmalı və mümkün çoxistifadəli interfeysə adaptasiya olunmalıdır.

**Müxtəlif istifadəçilər üçün informasiyanın uyğunluğu.** İnformasiya sisteminin kompüter və telekommunikasiya şəbəkələrində tətbiq edilən verilənlər və məlumatların formatları texniki sistemlərin məhsuldarlığına (yaddaşın həcmi, sürətliliyi, buraxıcılıq qabiliyyəti və s.) maksimal imkan verməlidir.

Sənədlərin növləri və formaları, kağız sənədlərdə rekvizitlərin yerləşməsi, verilənlərin ölçüləri və digər parametrlər informasiyanın maşın emalını asanlaşdırmalıdır. Bundan başqa, nəqliyyatın bütün növləri üzrə daşıyıcıların, ekspeditorların, logistik vasitəçilər və verilənlər formatının digər istifadəçilərinin kompüter və telekommunikasiya sistemlərinin informasiya uyğunluğu təmin edilməlidir. Qeyd edək ki, MLNPS-in informasiya dəstəyini üç aspektdə araşdırmaq lazımdır: ərazi (sahə), ölkə və beynəlxalq miqyaslarda [3].

Ərazi mövqeyindən LNPS-in informasiya təminatı regionun telekommunikasiya mühitinin elementi kimi çıxış edir. Bu isə mühitin digər elementləri ilə uyğunluq tələbini ön plana çəkir, müxtəlif informasiyaların regionun maraqları çərçivəsində emalı zərurətini ortaya qoyur.

Sahə aspekti informasiya dəstəyini nəqliyyatın müəyyən növünün və ya ayrıca nəqliyyat müəssisələrinin idarə edilməsinin vacib tərkib hissəsi kimi baxılmasını nəzərdə tutur. Problem ümumi maraqlar naminə regionun və nəqliyyat növünün informasiya resurslarının rasional uyğunlaşdırılmasından ibarətdir.

Aydındır ki, milli logistik nəqliyyat-paylayıcı sistem beynəlxalq nəqliyyat sisteminin tərkib hissəsi və ya elementdir. Onun səmərəli istifadə edilməsi ərazilərin və regionların sosial-iqtisadi inkişafına, Azərbaycanın Avropa İttifaqı iqtisadi məkanına inteqrasiyasına kömək edir.

Bununla yanaşı, logistik nəqliyyat sistemləri nəqliyyat logistikası, ticarət, bank, sığorta, vergi və gömrük əməliyyatları sahəsində aparılan bu günkü informatikləşdirmədə qəbul edilmiş vahid yanaşmalara riayət edilməsini tələb edir.

Bu problemlərin ən yaxşı həlli dünya standartları və protokollara uyğun razılaşdırılmış və ekvivalent quruluşa malik sənəd dövriyyəsi və normativ-hüquqi bazaya əsaslanan informasiya mübadiləsinin təşkili şəraitində mümkünüdür. Belə tələblər yalnız regionda vahid informasiya məkanının mövcudluğu şəraitində yerinə yetirilə bilər.

MLNPS-in fəaliyyətinin çoxfunksiyalılığı və özünəməxsusluğu, bir tərəfdən, ölkə ərazisində məskunlaşmış müəssisə və təşkilatların nəqliyyat-paylayıcı strukturlarla səmərəli qarşılıqlı təsiri zərurəti, digər tərəfdən isə etibarlı koordinasiya mexanizmlərinin yaradılmasını tələb edir.

Müasir şəraitdə bu problemin həlli nəqliyyatın, terminalların, LNPM, logistik vasitəçi şirkətlərin – yük və əmtəə hərəkəti sistemi təşkilatçılarının və vahid informasiya məkanı çərçivəsində fəaliyyət göstərən sosial-iqtisadi kompleksin digər obyekt və subyektlərinin fəaliyyətinin koordinasiyası vasitəsilə mümkündür.

Beləliklə, vahid informasiya məkanı (VİM) strateji məqsəd kimi qoyulur, ona nail olmağa isə MLNPS-in informasiya təminatı altproqramı yönəldilməlidir. Şəkil 2-də yuxarıda şərh olunan prinsiplər əsasında qurulmuş MLNPS-in informasiya dəstəyinin tövsiyə olunan təşkilati strukturu təqdim olunmuşdur. Şəkil 3-də MLNPS-in telekommunikasiya şəbəkəsinin iyerarxik strukturu təsvir olunmuşdur. Göründüyü kimi, ölkənin vahid informasiya məkanında baş koordinator qismində regional informasiya-analitik mərkəz (RİAM) təklif olunur. RİAM regional logistik nəqliyyat-paylayıcı mərkəzin (RLNPM) tərkibinə girir.




***Şəkil 2.*** *MLNPS-in informasiya təminatının təşkilati strukturu*

MLNPS-in informasiya dəstəyi altproqramının əsas məqsədlərini aşağıdakıları hesab etmək olar:

1. MLNPS-in informatikləşdirilməsi sisteminin yaradılması və inkişafı üzrə işlərin koordinasiyası, onların milli və beynəlxalq layihə və proqramları ilə uyğunluğu və qarşılıqlı təsirlərinin təmin edilməsi, nəqliyyat-paylayıcı kompleksinin informasiya və telekommunikasiya infrastrukturu və nəqliyyat logistikasının təkmilləşdirilməsi.

2. Razılaşdırılmış konseptual baza və dünya standartları əsasında vahid regional informasiya məkanının yaradılmasında iştirak.

3. Ölkənin nəqliyyat kompleksinin bütün növləri və bəndlərinin dayanıqlı idarə edilməsini təmin edən LNPS-in infromatikləşmə infrastrukturunun formalaşdırılması və inkişafı.

4. Ölkədə istifadəçilərin geniş dairəsinə müasir telekommunikasiya və informasiya xidmətlərinin göstərilməsi.

5. Nəqliyyat-logistik servisin təşkili və həyata keçirilməsi zamanı nəqliyyat logistikası, informasiya uyğunluğu və informasiyanın elektron mübadiləsinin digər sferalarında beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

Qoyulmuş məqsədlərə nail olmaq üçün MLNPS-in informasiya təminatı altproqramında aşağıdakı vəzifələri həll etmək lazımdır:




***Şəkil 3.*** *MLNPS-in telekommunikasiya şəbəkəsinin iyerarxik strukturu*

- ✓ ölkədə LNPS-in telekommunikasiya mühiti və informasiya infrastrukturunun inkişafı plan və layihələrinin işlənməsi zamanı sahələr və nəqliyyat idarələri arasında altproqram çərçivəsində qarşılıqlı təsirlərin təşkili;
- ✓ idarəetmə, informatikləşdirmə və telekommunikasiya sahəsində LNPS-in maraqlarına toxunan beynəlxalq və milli layihə və altproqramlarla altproqram çərçivəsində qarşılıqlı təsirlərin təşkili;
- ✓ idarəetmə ərazisində yerləşən LNPS-in müxtəlif bəndlərinin vəziyyəti və fəaliyyəti barədə dövlət və icra idarəetmə orqanlarının informasiya təminatı sahəsində ərazilərin informatikləşdirilməsi proqramları ilə qarşılıqlı təsirlərin təşkili;
- ✓ nəqliyyat-logistik servisin informatikləşdirilməsi sahəsində ümumi istifadə təyinatlı verilənlər bazası və banklarının regional sistemi ilə qarşılıqlı təsirlərin təşkili;
- ✓ LNPS-in vahid informasiya məkanının metodologiyası, texnologiyası və təşkilinin formalaşdırılmasında iştirak;
- ✓ LNPS-in müxtəlif struktur bəndlərinin proqram texniki komplekslərinin yaradılması və inkişafı konsepsiyası, proqramları və layihələrinin işlənməsi və reallaşdırılması;
- ✓ beynəlxalq və milli nəqliyyat xətlərində təqdim olunan informasiya xidmətlərinin kəmiyyət və keyfiyyətinin artırılması;
- ✓ ölkənin informasiya təhlükəsizliyinin təmini tələbləri və prinsiplərinə uyğun olaraq informasiya fondlarına girməyin sanksiyalı giriş rejiminin, informasiyanın etibarlı mühafizəsi və saxlanmasının zəruri səviyyəsinin təmini;
- ✓ ölkədə və regionda yük və əmtəə hərəkəti sisteminin rasionallaşdırılması üzrə kompleks funksional qarşılıqlı əlaqəli vəzifələri həll edən, terminal kompleksləri və logistik-nəqliyyat-

paylayıcı mərkəzlərin tərkib hissəsi kimi informasiya-analitik mərkəzlərin (İAM) yaradılması layihələrinin işlənməsi və reallaşdırılması.

Ölkədə formalaşdırılan LNPS-in fəaliyyəti və inkişafında normativ-hüquqi təminat altsistemi mühüm əhəmiyyət kəsb edir. Belə ki, LNPS-in formalaşdırılması proqramının reallaşdırılmasının normativ-hüquqi təminatının altsisteminin məqsədləri aşağıdakılardır:

- ✓ vahid normativ-hüquqi məkanın və LNPS iştirakçıları və subyektlərinin iqtisadi qarşılıqlı əlaqələrinin qarşılıqlı faydalı sisteminin yaradılması;
- ✓ nəqliyyat-logistik fəaliyyətin dövlət tənzimlənməsi altsisteminin yaradılması, LNPS iştirakçılarına daha münbit şəraitin təmin edilməsi;
- ✓ regionda və ölkədə nəqliyyat logistik xidmətlərin sivil bazarının yaradılması;
- ✓ beynəlxalq standartlara uyğun yeni nəsil iri multimodal terminal kompleksləri və LNPM-nin nəqliyyat şəbəkəsi qovşaqlarında yaradılması, eləcə də nəqliyyat-logistik infrastrukturun digər elementlərinin inkişafına böyük sərmayələrin, o cümlədən xarici investorların cəlb edilməsi üçün şəraitin təmini.

Daxili və beynəlxalq bazarda nəqliyyatın inkişafını təmin etmək məqsədilə nəqliyyat servisinin, ilk növbədə nəqliyyat-ekspedisiya və logistik xidmətin sürətli inkişafı vəzifəsi qoyulmalıdır. Logistik xidmətlər yüklərin daşınması, terminallarda emalı, eləcə də nəqliyyatın bütün növlərində müxtəlif mülkiyyət formasında xırda, orta və iri ekspeditor təşkilatları və logistik vasitəçi şirkətlərinin yaradılması ilə əlaqədar iş və xidmətlərin geniş kompleksini əhatə etməlidir [4].

Bu müddəanın təsdiqini altsahə kimi fəaliyyətinin əsas şərtlərini tənzimləyən Nəqliyyat Strategiyasının "Nəqliyyat ekspedisiyası" bölməsində təsbit olunması göstərir. Elə bu Strategiyada "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Qanunun işlənib hazırlanması zərurəti qeyd olunmuşdur. Strategiyada nəqliyyat ekspedisiyaları xidmətinin inkişaf etdirilməsi və fəaliyyətinin tənzimlənməsinin ümumi məsələləri əksini tapmışdır.

Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında qanunvericilik aktına zərurətin vacibliyini təsdiqləyərək, qeyd etməliyik ki, hətta bu sənəd mükəmməl olsa belə, bütün məsələləri həll edə bilməyəcəkdir. Nəqliyyat-ekspedisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi və stimullaşdırılması tədbirlərinin işlənməsi üçün Nəqliyyat Nazirliyi və bütün maraqlı təşkilatların, habelə sahənin görkəmi alim və mütəxəssislərinin cəlb edilməsi ilə elm-texniki konfrans və metodoloji seminarların keçirilməsi də faydalı ola bilərdi.

Məsələn, Nəqliyyat Strategiyasında nəqliyyat-ekspedisiya fəaliyyətində mütərəqqi bir yanaşma kimi logistik yanaşmanın daha geniş tətbiq edilməsi zərurəti vurğulanmalıdır. Çünki, əvvəllər də qeyd etdiyimiz kimi, bir çox qabaqcıl Qərb şirkətləri, son vaxtlar isə Rusiya firmaları nəqliyyat-ekspedisiya biznesinə daha çox diqqət yetirərək, özlərini logistik şirkətlər adlandırır, bununla da mütərəqqi logistik texnologiyaların tətbiqini müştərilərə xidmətdə ön plana çəkirlər.

Hazırda nəqliyyat xidmətləri bazarında ekspeditor fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Ekspeditor burada əsas rollardan birini oynayır, ekspeditor əmtəə-material və müşayiətedici servis, informasiya və maliyyə axınlarının təşkili və hərəkəti ilə əlaqədar logistik funksiyaların daha böyük miqdarını özündə birləşdirir.

Qeyd etdiyimiz kimi, nəqliyyat xidmətləri bazarında rəqabət mühitinin formalaşması şəraitində nəqliyyat xidmətinin keyfiyyətinə tələblər xeyli artır, yük daşımalarına tələbin strukturu dəyişir. Yük nəqliyyatında xırda göndərişlərin çatdırılmasına, konteyner daşımalarının təşkilində, şəhərlərarası və beynəlxalq daşımalarda nəqliyyat-ekspedisiya xidmətlərinə, təcili və bahalı yüklərin çatdırılmasına tələbat durmadan artır. Bunlar son istehlakçıya yüklərin çatdırılmasının təşkilində prinsipcə yeni yanaşma tələb edir, onun əsasında nəqletmənin təşkili və idarə edilməsinin logistik prinsipləri və logistika texnologiyaları durur. Qeyd edək ki, beynəlxalq yük daşımalarında yük sahiblərinə göstərilən nəqliyyat xidmətinin keyfiyyəti, milli nəqliyyat operatorlarının rəqabət qabiliyyətinin təmini, hər şeydən əvvəl, təqdim edilən nəqliyyat-ekspedisiya xidmətlərinin səviyyəsindən, daşıma prosesində tətbiq edilən texnologiyalardan, eləcə də əmtəə-material axınlarının informasiya müşayiəti

də daxil olmaqla göstərilən nəqliyyat-logistik servisin xarakteri və səviyyəsindən asılıdır. Beləliklə, MLNPS-in formalaşdırılması proqramının reallaşdırılmasının səmərəliliyi xeyli dərəcədə onun normativ-hüquqi təminatının keyfiyyət və dərinliyindən asılıdır.

MLPS-in formalaşdırılması və inkişafının normativ-hüquqi təminatı altsistemi aşağıdakı əsas vəzifələrin həllinə istiqamətlənməlidir:

- ✓ MLNPS-in yaradılması Proqramının reallaşdırılması iştirakçıları iqtisadi qarşılıqlı münasibətlərinin vahid qarşılıqlı faydalı sisteminin yaradılması;
- ✓ ölkədə nəqliyyat-logistik xidmətləri (nəqliyyat-ekspedisiya, gömrük-anbar, terminal, ticarət-vasitəçi, kommersiya-işgüzar və digər servis xidmətləri, yük və məhsul daşımalarının müşayiət edən digər xidmətlər) sivil bazarının yaradılması;
- ✓ ölkədə yük və məhsul daşımaları sisteminin dövlət tənzimlənməsi, MLNPS iştirakçılarına daha münasib şəraitlərin yaradılması;
- ✓ Proqramın reallaşdırılmasına qeyri-dövlət, o cümlədən xarici sərmayələrin də cəlb olunması üçün şəraitin təmini.

Milli və regional səviyyələrdə nəqliyyat-ekspedisiya və logistik fəaliyyətlərin inkişafının stimullaşdırılması, hər şeydən əvvəl, dövlətin nəqliyyat-logistik infrastruktur obyektlərinin (yollar, terminallar, NPM, kommunikasiya sistemləri və s.) tikintisi, müasirləşdirilməsi və fəaliyyətinin təşkilinə vəsaitlərin qoyulması ilə əlaqədardır.

İri nəqliyyat-logistik infrastruktur obyektlərinin tikintisi və fəaliyyəti, adətən xeyli böyük sərmayələr tələb edir və bəzi hallarda ancaq dövlətin iştirakı ilə həyata keçirilməlidir. Bununla yanaşı, ölkə, eləcə də regional səviyyələrdə dövlət qurumları ilə biznes subyektlərinin tərəfdaşlığı mexanizmi də istifadə oluna bilər.

MLNPS-in inkişafının daha bir vacib amili nəqliyyat-ekspedisiya və logistika müəssisələrində işləmək üçün kadrların hazırlanması və ixtisasının yüksəldilməsi üçün peşə təlimi şəbəkəsinin inkişafının stimullaşdırılmasıdır. Çünki nəqliyyat ekspedisiya və logistik şirkət işçilərinin yaxşı peşə-ixtisas hazırlığı uğurlu fəaliyyət üçün mühüm şərtdir.

Beləliklə, nəqliyyat-ekspedisiya və logistik fəaliyyətin dövlət tənzimlənməsində mərkəzi məsələ nəqliyyat-ekspedisiya və servis xidmətinin keyfiyyətinin təmin edilməsidir.

Nəqliyyat-ekspedisiya və logistika fəaliyyətinin keyfiyyətinin idarə edilməsi sferasında dövlət siyasətinin ən vacib prinsipi isə kompleks nəqliyyat-ekspedisiya və logistika xidmətləri istehlakçılarının (fiziki və hüquqi şəxslərin) ehtiyaclarının ödənilməsinə yönəlməlidir.

**Nəticə.** MLNPS-in funksional altsistemləri arasında mərkəzi yeri regional paylayıcı mərkəzlər (RPM) tutur, onlar özlərində böyük miqdarda əsas və dəstəkləyici nəqliyyat-logistik funksiyaları inteqrasiya edir və yüklərin cəmləşməsini, emalını, servis və kommersiya-işgüzar xidmətini təmin edir. Məhsulların səmərəli paylanmasının təşkili və onların son və ya aralıq istehlakçıya çatdırılması prosesinin düzgün yerinə yetirilməsi nəqliyyat-texnoloji prosesin səmərəli uzlaşdırılmasına gətirib çıxarır. MLNPS təşkilati funksional strukturunun modelləşdiriməsi proqramı sayəsində texniki-iqtisadi və səmərəlilik göstəriciləri yüksələcək və investisiyalar əsasən regionda nəqliyyat-logistik infrastrukturun inkişafına yönəldiləcəkdir.

Bu məqsədlə, MLNPM-nin informasiya təminatı və inteqrasiyalı altsisteminin formalaşdırılması öyrənilməklə MLNPM-nin təşkilati-funksional strukturu üçün yeni modellər təklif edilmişdir. Həmin strukturda MLNPS informasiya təminatı məsələləri təkmilləşdirilmişdir. Müasir tələblərdən biri hesab edilən multimodal logistik nəqliyyat-paylayıcı sisteminin telekommunikasiya şəbəkəsinin iyerarxik strukturu normativ-hüquqi təminat sənədləri nəzərə alınmaqla işlənib hazırlanmışdır.

## Ədəbiyyat

1. Rəhimov C.R., Adilzadə R.E. Su nəqliyyatının istismar keyfiyyətinin innovativ üsullarla yüksəldilməsi. ADDA-nın “Elmi əsərləri”. №1, Bakı, 2022, səh. 72-77.

2. Rəhimov C.R. Regionlarda nəqliyyat sisteminin inkişafının səmərəliliyinin qiymətləndirilməsinin metodoloji əsasları. ADDA-nın "Elmi əsərləri". №1, Bakı, 2016, səh. 77-80.
3. Rəhimov C.R. Milli Logistik sistemlərin formalaşdırılmasının əsaslandırılması. ADDA-nın "Elmi əsərləri". №2, Bakı, 2016. Səh. 114-119.
4. Rahimov J.R, Isgandarov E.B. Main direction of transport system managment. European Academy of Natural sciences. "Materials of the international symposium eanw". Hannover, Germany. Vol. II. 2018, p.118-120.

*Məqalə qəbul olunub: 26.09.23*
*Tövsiyə edib: prof. Yusubov N.D.*